## «Tədris Mərkəzi regionda ən müasir infrastruktura malik obyektlərdəndir»

«AtaBank» ASC-nin bank kartları departamentinin direktor müavini Kamran Şıxəliyev bildirmişdir ki, Vergilər Nazirliyinin Tədris Mərkəzi son illərdə regionda inşa olunan ən müasir infrastruktura malik tikililərdəndir. Onun fikrincə, Mərkəzdə Vergilər Nazirliyi əməkdaşlarının tədrisi və ixtisaslarını artırması, işgüzar dairələrin iştirakilə faydalı müzakirələrin aparılması üçün hər cür şərait var: «Belə bir məkanda təşkil olunan seminarın əhəmiyyəti yüksəkdir. Açığı, region şəraitində geniş imkanlara, iş şəraitinə malik Tədris Mərkəzinin mövcud olduğunu təsəvvür etmirdik. Tədris Mərkəzinin maddi-texniki bazası və infrastrukturu yüksək səviyyədədir. Burada nazirlik əməkdaşlarının tədrisi və peşə hazırlığının yüksəldilməsi üçün lazımi şərait yaradılıb. Tədris Mərkəzi ümumilikdə regionun inkişafı baxımından da faydalıdır».

Kamran Şıxəliyev mağdsız ödənişlər mövzusunda seminarın təşkili ilə bağlı demişdir ki, əhalinin bu sahədə maarifləndirilməsi qarşıda duran vacib vəzifələrdən biridir. Onun fikrincə, maarifləndirmə tədbirlərini yalnız Vergilər Nazirliyi, Mərkəzi Bank və digər dövlət qurumlarından, eləcə də kommersiya banklarından gözləmək düzgün olmazdı: «Fikrimcə, POS-terminallardan istifadənin genişləndirilməsi sahəsində Vergilər Nazirliyi və aidiyyəti qurumların həyata keçirdiyi tədbirlərin əhəmiyyəti əvəzsizdir. Lakin fikrimizcə, əhalinin lazımi səviyyədə məlumatlandırılması üçün kütləvi informasiya vasitələrinin əməkdaşları və qeyri-hökumət təşkilatları da yaxından iştirak etməlidirlər. Nağdsız ödənişlərin faydalı cəhətlərinin təbliği ilə yanaşı, həvəsləndirici tədbirlər də diqqət mərkəzində olmalıdır. «AtaBank» bu məqsədlə 2011-ci ilin dekabrından «Nağdsız ödə, nağd qazan!» stimullaşdırıcı kampaniya keçirir. Son aylarda bank 10 minə yaxın ticarət, xidmət və iaşə müəssisəsində POS-terminallar quraşdırılmışdır. Bu POS-terminallar təkcə Bakı şəhərini deyil, respublika regionlarını da əhatə edir. Eyni zamanda, POS-terminallardan istifadəyə görə «AtaBank» ən minimal faiz dərəcəsi müəyyənləşdirib».